UOT 902
https://doi.org/10.59849/2710-0820.2024.1.162

**Elmar Baxşəliyev**
*AMEA Naxçıvan Bölməsi*
*elmarbakhshaliev@gmail.com*

# DALMATƏPƏ MƏDƏNİYYƏTİ ABİDƏLƏRİNİN TOPOQAFİK VƏ MƏDƏNİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *Dalmatəpə, Eneolit, Ubed tipli keramika, Xalaf keramikası,boyalı keramika, topoqrafiya, basma naxışlı keramika.*

**Giriş.** Dalmatəpə mədəniyyətinə aid tipli abidələr Şimal Qərbi İran (İran Azərbaycanı), İraq və Azərbaycan ərazisində yayılmış, e.ə V minilliyin birinci yarısından etibarən özündən əvvəlki mədəniyyətlərin də təsiri ilə inkişaf etmişdir. Erkən Eneolit mədəniyyətinin daşıyıcısı olan tayfalar əkinçilik və köçmə maldarlıqla məşğul olmuş, özünə xas keramikası ilə fərqlənən bu mədəniyyətin geniş coğrafiyaya yayılmasında iştirak etmişdirlər. Dalma mədəniyyəti ilə təmsil olunan abidələrin topoqrafik xüsusiyyətləri indiyədək geniş öyrənilməmişdir. Bu tip abidələrin topoqrafik xüsusiyyətlərinə nəzər yetirdikdə onların yaşayş tərzi haqda yeni fikirlər ortaya çıxır. Bu məqalədə məqsəd Dalmatəpə tipli abidələrin topoqrafik xüsusiyyətlərini, stratiqrafiyasını öyrənmək və bu mədəniyyəti yaradan tayfaların həyat tərzini daha aydın şəkildə izləməkdən ibarətdir.

**Şimal-Qərbi İranın yaşayış yerləri.** Araşdırmalar Dalmatəpə mədəniyyətinə aid abidələrin başlıca olaraq Şimal-Qərbi İranda, xüsusilə Urmiya gölünün qərbində yayıldığını göstərir. Bu bölgədə yerləşən ən mühüm abidələrdən biri Dalmatəpədir.

**Dalmatəpə**. Bu mədəniyyətə adını verən Dalmatəpə yaşayış yeri 1958-1959-cu ildə Charles Burney və 1961-ci ildə Cuyler Young tərəfindən tədqiq edilmişdir. Yaşayış yeri Urmiya gölünün cənub-qərbində, İran Azərbaycanın qərbində, dəniz səviyyəsindən təxminən 1289 metr yüksəklikdə yerləşir. Diametri təqribən 50 metr olan yaşayış yerinin müasir yer səviyyəsindən hündürlüyü 4 metrdir (23, p. 111). Dalmatəpədə aparılan arxeoloji qazıntılar yaşayış yerinin stratiqrafiyasını və memarlığını öyrənmək baxımından əhəmiyyətlidir. Yaşayış yerində dörd sahədə qazıntılar aparılmışdır. 1958-ci ildə A sahəsində 5x2 m ölçüdə, 1959-cu ildə B sahəsində 7x3 m ölçüdə, 1961 ci ildə III sadədə 7x4,5 m ölçüdə və IV sahədə 7x4,5 m m ölçüdə tədqiqat aparılmışdır. Daha sonra A və B sahələri uyğun olaraq I və II sahə adlandırılmışdır. Hər iki sahədə (A və B) aparılan qazıntılar 3-3,5 m dərinlikdən sonra suyun üzə çıxması nəticəsində dayandırılmışdır. Stratiqrafiyaya diqqət yetirsək yaşayış yeri 3, 2 m dərinliyədək qazılmış və ən altdakı 6-cı təbəqədə Hacı-Firuz dövrünə aid keramika parçaları aşkar olunmuşdur. Cuyler Youngun qazıntı apardığı 4-cü və 5-ci təbəqələrdə öncəki və sonrakı dövrlərlə qarışığı olmayan Dalmatəpə mədəniyyətinə aid keramika aşkar olunmuşdur (23, p. 113). Tədqiqat zamanı memarlıq qalıqları 5 sahədə daha aydın izlənmişdir. Bu sahədə həyətə açılan dördkünc formalı evlərin qalıqları, onların yaxınlığında zibil çuxuru və ocaq aşkar olunmuşdur. Memarlıq qalıqlarına nəzər saldıqda, tədqiqatçılar tərəfindən 1961-ci ildə təmizlənmiş tikililərin mürəkkəb quruluşa malik olduğunu demək olar. Bu tikililərə örtülü müstəqil tikililər, örtülü açıq həyətlər və palçıqdan tikilmiş divarlar daxildir (23, p. 115, fig.3). Memarlıq qalıqlarının təhlili ən azı dörd tikinti mərhələsinin mövcud olduğunu göstərir. Rəngli suvaq və ya divar rəsmlərinin olmaması ərazidəki memarlığın sadə və funksional üsluba malik olduğunu göstərir(23, p. 113). Bu tapıntılar Dalmatəpənin arxeoloji kontekstini zənginləşdirir və bölgədəki məskunlaşma tarixinə və mədəni təkamülünə mühüm töhfə verir.

Dalma dövrü memarlığının üst təbəqələrində Dəmir Dövrünə (V Həsənlu) aid qəbirlər tapılmışdır. Bu 16 məzarın böyük insanlara aid olduğu müəyyən edilmişdir. Bunlardan əlavə Dalma dövrünə aid 14 məzar da aşkar edilmişdir. Bunlar keramika qablar içərisində dəfn edilmiş uşaq qəbirləri idi. Qəbir materialları məhdud saydadır. Cuyler Youngın apardığı qazıntılar zamanı Dalmatəpə dövrünə aid küplərdə dəfn edilmiş uşaq qəbirləri aşkar olunsa da onlar yaxşı saxlanılmadığından öyrənilə bilməmişdir. Fauna qalıqları isə arxeoloji materialların daşınması zamanı itirilmiş və analiz edilə bilməmişdir.

Dalmatəpə yaşayış yerindən daşdan və sümükdən hazırlanmış müxtəlif əmək alətləri aşkar olunmuşdur. Artefaktlar əsasən keramikadan ibarət olsa da, metal əşyalar da tapılıb. Qəlpələnmiş daşlardan, adətən, çaxmaq daşından və obsidiandan düzəldilmiş iri bıçaq və yonqarlarda aşkar edilmişdir. Döşəmə daşı tapıntıları məişət fəaliyyəti olduğunun göstəricisidir. Sümük tapıntıları arasında bizlər xüsusilə diqqəti cəlb edir. Keramika əşyaları arasında iy başlığı kimi maddi mədəniyyəti əks etdirən əşyalar vardır (23, p. 115-117).

Dalmatəpə mədəniyyətini xarakterizə edən arxeoloji tapıntıların əksəriyyəti keramika məmulatından ibarətdir. Dalmatəpədən aşkar edilmiş keramikanı dörd əsas kateqoriyaya bölə bilərik: boyalı, basma naxışlı, qırmızı astarlı və sadə keramika. Boyalı keramika müxtəlif formalı qablarından ibarətdir. Keramika nümunələri kasa, çömlək tipli qabların parçalarından ibarətdir. Aşkar edilmiş keramikanın müəyyən qrupu monoxrom boyalıdır. Keramika nümunələri qırmızının müxtəlif tonlararında olmaqla qara boya ilə naxışlanmışdır. Naxış motivləri bir-biri üzərində yerləşdirilmiş üçbucaqlar, romblar və ziqzaqlarlandan ibarətdir. Bu naxışlar adətən keramikanın xarici səthinə çəkilmiş, bir-birini təkrarlayaraq qabların bütün gövdəsini əhatə etmişdir (23, p.121, fig. 4). Basmanaxışlar adətən qabın xarici səthinə əl ilə, bəzən isə xüsusi alətin köməyi ilə salınmışdır. Basmanaxışlar arasında daraqşəkilli formada olan naxışlar, barmaq basqılı nümunələr, qamış parçası ilə və müxtəlif alətlər vasitəsi ilə naxışlanmış olan nümunələr vardır. Bundan başqa dırnaq basqısı ilə naxışlanmış və ağac parçası izinə bənzəyən çarpaz deşiklər şəklində olan müxtəlif naxış formaları da vardır. Tədqiqatçıların fikrincə keramikanın xarici divarlarındakı qara ləkələr bu qabların yemək bişirməkdə istifadə oluna biləcəyinə işarə edir. Bu tip keramikanın daxili tünd qırmızı astar və ya boya ilə örtülmüşdür. Basmanaxışlı qabların gilinin tərkibi boyalı qabların tərkibinə bənzəyir, lakin bəzi nümunələrdə daha daha az saman qatqısı vardır. Keramikanın müxtəlif tipləri vardır. Məsələn, ağız kənarları xaricə qatlanmış çölməklər, qabarıq formalı kasalar, kiçik sferik qablar və düz kənarları olan nimçəyə bənzər qablar (23, p.125, fig. 8).

Qırmızı astarlı keramikanın xəmiri açıq narıncı və çəhrayı rəngdə bişirilmişdir. Xəmirin tərkibində saman və kiçik ağ dənəciklər vardır. Bu tip keramika basma naxışlı keramikaya nisbətən daha az qırılğandır. Keramika nümunələrinin iç və çöl səthinə qırmızı rəngli boya çəkilmişdir. Boyanın rəngi qırmızının müxtəlif tonlarında, bəzən qəhvəyi, bəzən də tünd gavalı rəngində olmaqla fərqli çalardadır. Keramikanın xarici səthindəki ləkələnmələr oksidləşmə vəya istifadə zamanı xarici təsirlərdən qaynaqlanmış ola bilər. Keramika nümunələrinin üzərindəki boya örtüyü qalındır, bunlar bəzi nümunələrdə çatlamış və soyulmuş formada müşahidə edilmişdir. Bəzi hallarda boyaq qabın səthinə bir parça ilə nazik qat şəklində çəkilmişdir. Keramika parçalarının tədqiqi göstərir ki, qırmızı boya bəzən ağ və ya bej rəngli astarın üzərinə çəkilmişdir. Bu qrupdakı keramika müxtəlif formalı olmaqla tabaq, kasa, çömlək və digər qabların parçalarından ibarətdir. Tədqiqatçıların fikrincə qırmızı boya ilə örtülmüş boyunlu və böyük ölçülü qablara, digərləri ilə müqayisədə daha çox rast gəlinir. Bundan başqa, Dalmatəpədən qırmızı boya ilə boyanmış bir neçə miniatür kasa da aşkar olunmuşdur (23, p. 124, fig 7, F,G, p.126, fig. 9 C-F, M, p. 127, fig. 10 D,F,G).




**Şəkil 1.** Dalmatəpədən aşkar edilmiş boyalı (1-4) və basma naxışlı (5-8) keramika (Hamlin 1975).

Keramika nümunələrin böyük bir qrupu da sadə keramikadan ibarətdir. Bu qrupa daxil olan bəzi qablar "özündən astarlı" və ya "krem astarlı"dır. Bununla belə, bu qrupdakıların əksəriyyəti mat rəng tonlarına sahibdir. Bəzilərinin səthi hamarlanmış, bəzilərilərinin səthi isə olduqca nahamardır. Lakin hamısı açıq bej rəngdədir. Yaşayış yerindən bu kateqoriyaya aid nimçələr, qabarıq gövdəli kasalar, müxtəlif ölçülü uzunsov kürəşəkilli qısaboyunlu qablar, dayaz və dərin kasalar aşkar edilmişdir (23, p.126, fig.9 J,K,L).

**Həsənli**. Dalma mədəniyyətinə aid digər bir abidə Həsənlitəpədir. Həsənlitəpə Şimal-Qərbi İran ərazisində, Qadar çayı vadisində ən böyük yaşayış məntəqəsidir və Sulduz adlanan kiçik düzənlikdə yerləşir. Yaşayış yeri ətraf düzənlikdən təqribən 8 metr hündürlükdədir. İnsanların burada məskunlaşması və müxtəlif fəaliyyətləri səbəbindən təpənin ölçüsü kiçilmişdir. Təpənin çevrəsi hazırda təxminən 600 metrdir (18, p. 1). Həsənlitəpənin dəniz səviyyəsindən yüksəkliyi 1304 mertdir. Həsənlitəpə ilk dəfə 1934-cü ildə aparılan qazıntılar zamanı aşkar olunan qəbirlərlə elmə məlum olmuşdur. 1936-cı ildə ingilis arxeoloqu Aurel Stein burada qazıntı aparmışdır. 1947-1949-cu illərdə İran arxeoloji xidməti M.Rad və A.Hakeminin rəhbərliyi ilə sitadeldən kənarda qazıntı aparmışdır (20, s. 83). 1956-1974-cü illərdə Pensilvaniya Universitetinin Muzeyi Robert Dysonun başçılığı ilə Həsənlitəpədə on mövsüm ərzində qazıntı aparılmışdır. Həsənlitəpədə aparılan qazıntılar zamanı Neolit dövründən başlayaraq Orta əsrlərədək böyük bir dövrü əhatə edən on təbəqə və müxtəlif maddi mədəniyyət qalıqları aşkar olunmuşdur. Ən qədim təbəqə Neolit dövrünə aid Hacı Firuz təbəqəsidir, onun üzərində Dalma Təpə və Pisdəli dövrlərinə aid maddi mədəniyyət nümunələri aşkar olunub (20, s. 85). Dalmatəpə mədəniyyətinə aid maddi mədəniyyət nümunələri Həsənli IX təbəqəsində aşkar olunmuşdur. R.Dyson Dalmatəpə dövrünü e. ə. 4500-4000-ci illərə aid etsədə onun e. ə.

5000-4000-ci illərə aid ola biləcəyini ehtimal etmişdir (20, s. 85).

**Hacı Firuz**. Hacı Firuz yaşayış yeri İranın şimal-qərbində, Qərbi Azərbaycan ostanında, Qadar çayı vadisində yerləşir. Oval formalı olan təpənin sahəsi 200x140 metrdir. Ətraf düzənlikdən 10 metr yüksəklikdə yerləşir (45, p. 7). Yaşayış yerinin dəniz səviyyəsindən yüksəkliyi 1296 metrdir. Hacı Firuz yaşayış yerinin Neolit dövründən başlayaraq Tunc və Dəmir dövrlərinə qədər davam edən uzun məskunlaşma tarixi vardır. Əsas qazıntı sahəsində mürəkkəb stratiqrafik ardıcıllıq aşkar edilsə də, müxtəlif çuxurlarda təbəqələşmə nisbətən sadə olmuş təkrarlanmışdır. Neolit yaşayış yeri tərk edildikdən sonra onun şərq kənarında yeni Dalma yaşayış yeri salınmışdır. Pisdəli dövrünə qədər bu yaşayış yerində yaşayış olmuş, insanların fəaliyyəti zamanı təpədə müxtəlif çuxurlar qazılmışdır. Tədqiqatçılara görə müxtəlif dövrlərdə çuxurların qazılması mürəkkəb bir mənzərə yaratmışdır. Təzə çuxurlar əvvəlki çuxurların içırisində qazıldığından Hacı Firuz yaşayış yerinin böyük hissəsi bu çuxurlarla əhatə olunmuşdur. Bunun nəticəsi olaraq əsas qazıntı sahəsindəki post-neolit materialının arxeoloji əhəmiyyəti azlmışdır.

Tədqiqatlar göstərir ki, yaşayış yerində Orta Tunc və Erkən Dəmir dövrü qəbirləri də mövcud olmuşdur. Yaxşı müəyyən edilə bilən yaşayış sahələri şimal-qərbdə Fl 1 kvadratında və F10 şurfunda Dalma və Pisdeli təbəqələrindədir. Tədqiqatlar zamanı Hacı Hiruzun çoxtəbəqəli yaşayış yeri olduğunu və burada Dalma dövrünün Hacı Firuz ilə Pisdeli dövrü arasında olduğu müəyyənləşdirilmişdir (46, p. 8, fig. 4). Bu abidənin stratiqrafiyası ilə də təsdiq olunur.




**Şəkil 2.** Lavintəpə (1,2,3,4 Nobari et al), Siahbidtəpə (5,6 Henrickson 1983), Naxçıvantəpədən (7-15 Bakhshaliyev et al) aşkar edilmiş basmanaxışlı keramika.

**Sevantəpə**. İranın şimal-qərbində, Urmiya gölünün cənub-qərbində, Marqavar vadisində yerləşən və Dalma mədəniyyəti ilə təmsil olunan yaşayış yerlərindən biri də Sevantəpədir (43, p. 98). Təpənin ətraf düzənlikdən hündürlüyü 6.30 metrdir. Dəniz səviyyəsindən yüksəkliyi isə 1515 mertdir. Tədqiqatçıların fikrincə Sevantəpənin arxeoloji tapıntıları əsasən dulusçuluq məmulatından ibarətdir. Burada e.ə V minilliyin birinci yarısında İranın Qərbi Azərbaycan əyalətində geniş yayılmış Dalma mədəniyyətinə aid keramikaya rast gəlinir. Bu dövrə aid keramika məmulatı dörd müxtəlif növə bölünərək təsnif edilir: Saman qatqılı qalın, saman qatqılı nazik qırmızı astarlı, Dalma tipli basmanaxışlı və Dalma tipli boyalı keramika. Dalma dövrü keramikası, daha çox əl istehsalı, saman qatqılı qablarla təmsil olunur və əsasən kasa və küpə tipli qablardan ibarətdir. Aşkar edilmiş saman qatqılı qalın keramika bənövşəyi-qırmızı boya ilə örtülmüş böyük, qalın divarlı qablardan ibarətdir. Bu tip qablar düz və ya bir qədər yuvarlaq tərəflərə malikdir. Küplər isə ümumiyyətlə içəriyə əyilmiş ağız kənarları və dar ağızlı formalarla xarakterizə olunur. Bu qabların gili nisbətən yumşaqdır və daxili səthdə saman və ya ağac lifləri basaraq düzəldilmiş dərin üfüqi cızıqlarlar vardır. Saman qatqılı nazik və qırmızı astarlı keramika, hamar səthləri olan bənövşəyi-qırmızı boyaqla örtülmüş qablardan ibarətdir. Bu qrupa kasa və küplər daxildir. Onlar forma baxımından müxtəlifdir. Bu tip keramikda gövdə qalınlığı 0,6 ilə 1,0 santimetr arasında dəyişir.

Dalma tipli basmanaxışlı keramika unikal bir növdür. Bunlar səthi müxtəlif alətlər və barmaq izləri ilə naxışlanan, adətən qırmızı boyaqla örtülmüş keramikadan ibarətdir. Bu keramikanın çoxunun xarici səthində yanma izləri var ki, bu da onların çox güman ki, yemək bişirmək üçün istifadə edildiyini göstərir. Bu qrupda ağız kənarları daxilə meylli və sadə ağız kənarlı küplər üstünlük təşkil edir.

Buradan aşkar edilmiş Dalma tipli boyalı keramikanın xarici səthi müxtəlif həndəsi fiqurlarla naxışlanmışdır. Bu qabların bəzədilməsində istifadə olunan boya, qabların bişirilməsindən sonra dəyişərək müxtəlif rəng tonları almışdır. Bu qrupa adətən orta ölçülü qablar və ağız kənarları xaricə meyilli olan küplər daxildir. Naxışlama prosesində həndəsi fiqurların çəkilməsində isə adətən qaba fırçalar işlənmişdir. Sevantəpədən aşkar edilmiş arxeoloji materiala keramika ilə yanaşı, qırmızı-qəhvəyi çaxmaq daşı, boz çaxmaq daşı, kvarsit və obsidiandan hazırlanmış daş alətlər də daxildir. Qırmızı-qəhvəyi çaxmaqdaşının qalıntıları arasında işlənməmiş parçalar və qazıma alətləri vardır. Obsidianın çoxluqla işlənməmiş yonqarları arasında istifadə edilmiş bəzi parçalar və istifadə izləri göstərən bıçaq yer almaqdadır. Bunlardan başqa Sevantəpədən tapılan digər əşyalar arasında gil iy başlığı, qırıq yastı sümükdən olan iynə, iki kiçik qırmızı oxra parçası aşkar edilmişdir (43, pp. 101-106). Burada qazıntı işləri şurflar vasitəsi ilə aparıldığından memarlıq qalıntılarından bəhs edilməmişdir (43, p. 99-101).

**Culfa Kültəpəsi**. Culfa Kültəpəsi İran Azərbaycanında Araz çayından 10 km cənubda yerləşən çoxtəbəqəli yaşayış yeridir. Dalma tipli boyalı keramika ilə təmsil olunan yaşayış yerinin VIII təbəqəsidir. Yaşayış yeri ətraf ərazidən 19 m hündürlükdə yerləşir. Dəniz səviyyəsindən yüksəkliyi isə 967 metrdir (6, p. 323). Qazıntı nəticələrinə əsasən Kül Təpədə səkkiz əsas dövr müəyyən edilmişdir. Araşdırmalar göstərir ki, yaşayış yeri Eneolit dövründən Əhəmənilər dövrünədək məskunlaşdırılmışdır. Bu yaşayış yerinin VIII təbəqəsindən aşkar olunan boyalı keramika Dalmatəpə mədəniyyətinə aid edilsə də buradan Dalma tipli basmanaxışlı keramika aşkar olunmamışdır.

Xüsusilə Dalma dövrünə diqqət yetirərkən, e.ə 4500-4200-cü illərə aid olan Son Eneolit təbəqələrində Pisdeli tipli boyalı keramika və digər Son Eneolit materialları aşkar edilmişdir. Dalma dövrünə aid keramika həndəsi və ya həndəsi olmayan fiqurlarla naxışlanmışdır. Keramika nümunələri rəngi qəhvəyi və qara arasında dəyişən mat boyalarla boyanmışdır. Bu dövrə aid bir çox keramikanın dibində bir sıra çıxıntı və ya çiyin ətrafında halqaşəkilli detallar vardır (6, pp. 323-27). Kültəpə yaşayış yerində aparılan şurf qazıntıları zamanı tikili qalıqlarına rast gəlinmişdir. 3 nömrəli şurfda VIII təbəqəyə aid tikili qalığı aşkar edilmişdir. Bu yalnız bir memarlıq mərhələsinin olduğunu göstərməkdədir. Tikili qəliblənmiş torpaqdan ibarətdir və diametri təxminən 2 metr olan dairəvi, yarımqazma tikililərə məxsus memarlıq qurulu-

şuna malikdir. Divarının eni 20-25 sm arasında dəyişir. Aşkar edilmiş bu nümunə həmin dövrdə çox istifadə edilən yarımqazmaı tikililərə nümunədir (5, p. 37).

**Lavintəpə**. Dalma mədəniyyətinin təmsil olunduğu digər bir yaşayış yeri Lavintəpədir. Lavintəpə İran ərazisində Qərbi Azərbaycan ostanında, Zab hövzəsinin şimalında və Urmiya gölünün cənubunda yerləşir. Yaşayış yerinin dəniz səviyyəsindən yüksəkliyi 1398 metrdir. Yaşayış yeri ətraf düzənlikdən 15 metr hündürlükdə yerləşir. Lavintəpədə aparılan qazıntılar burada Neolit, Eneolit və Dəmir dövrünə aid təbəqələrin olduğunu aşkara çıxarmışdır. 1,5 hektar ərazini əhatə edən ərazi kənd təsərrüfatı fəaliyyətlərinin mənfi təsirinə məruz qalmış və kiçilmişdir. Burada aparılan stratiqrafik qazıntılar nəticəsində yeddi ayrı xronoloji dövr aşkar edilmişdir. Dalma tipli keramika üstünlük təşkil edir. Əsasən əldə düzəldilmiş keramikanın tərkibi saman qatqılıdır. Bu keramikanı boyalı, basmanaxışlı, qırmızı boyalı və sadə keramika kimi bir neçə qrupa bölmək olar (41, p.101).

Dalma keramikasının Qərbi İranda, xüsusən Mərkəzi və Şimali Zaqros dağları da daxil olmaqla geniş ərazidə yayılması onun şəhər mərkəzləri və Mesopotamiya ilə mədəni əlaqələri olmasına işarə edir. Həmçinin Zab hövzəsinin şimal bölgəsində Pisdeli mədəniyyətinə dair keramika, xüsusilə də Uruk dövrü əyri kənarlı kasa nümunələri vardır ki, bu da son Eneolit dövründə proto-şəhər dövrünün inkişafının göstəricisidir.

Lavin Təpənin arxeoloji tapıntıları İranın Şimal-Qərbinin mədəni və xronoloji təkamülünün başa düşülməsinə mühüm töhfələr verir, tarixdən əvvəlki dövrləri və bölgədəki mədəni qarşılıqlı əlaqələri anlamaq üçün fikir yaradır.Tikiliyə aid divar qalıqları aşkar edilmiş, lakin strukturun ölçüsü və növü haqqında dəqiq məlumat əldə edilə bilməmişdir. İkinci təbəqənin şərq və qərb hissəsində səki daşları və kül izləri aşkar edilmişdir. Cənub hissəsində kərpiç və kül tapılsa da, memarlıq quruluşunu müəyyən etmək mümkün olmayıb (41, p. 99).




**Şəkil 3.** Culfa Kültəpəsi (1,2 Abedi et al) Lavintəpə (3,4 Nobari et al) Seh Qabi (5,6 Henrickson 1983) Siahbidtəpədən (7,8 Henrickson 1983) aşkar edilmiş boyalı keramika.

**Seh Qabi.** Kirmanşah və Həmadanın arasında, Qodintəpədən 6 km şimal-şərqdə yerləşir. Yaşayış yeri müasir yer səviyyəsində 7 m yüksəklikdə yerləşən diametri 100 m olan təpə şəklindədir (48, p.57. 27, p. 156). Yaşayış yeri 1971-ci ildə L. Levine tərəfindən kəşf edilmişdir. Yaşayış yeri hər biri üç ay davam edən iki mövsümdə aparılan qazıntılarla öyrənilmişdir. Əsas qazıntə 1971-ci ildə B təpəsində aparılmış, 1973-cü ildə isə iki şurf qoyulmuş, lakin xam torağadək davam etdirilməmişdir. Tədqiqat zamanı Seh Qabi B təpəsində yeddi lay müəyyən edilmişdir. 1-4-cü təbəqələr Seh Qabi dövrünə, 5-7-ci təbəqələr isə Dalma dövrünə aid edilmişdir (27, s. 157). Tədqiqatçıların fikrinə görə bu yaşayış yerində əsasən üst təbəqələr geniş öyrənilmişdir. Dalma dövrünə aid təbəqələrdə kül və kərpic qalıqlarının olduğu izlənmişdir. Tədqiqatlar zamanı 7 layda hörgü qalıqlarına rast gəlinsə də arxitektura qalıqları aşkar olunmamışdır. Bu layın qalınlığı 20 sm olmuşdur. 6-cı layda kərpic divarın qalıqları aşkar olunmuşdur. Bu lay 1,5 m qalınlığında idi. Qalınlığı 50 sm olan 5-ci layda dördkünc formalı otağın qalıqları və Dalma keramikası tapılmışdır. 4-cü layda ölçüsü 3x3 m olan dördkünc evin qalıqları aşkar olunmuşdur. Tədqiqatçıların fikrinə görə Seh Qabidə Dalmanın bütün mərhələləri təmsil olunmamış, ola bilsin ki, onun son dövrü əks olunmuşdur (27, p. 174). Lakin qeyd etmək lazımdır ki, Seh Qabidə Dalmatəpə keramikasının bütün tipləri, sadə, boyalı, basmanaxışlı, qırmızı astarlı və digər tipləri vardır (27, p. 179-181).

**Təpə Qışlaq**. Bu yaşayış yeri Şimal-Qərbi İranda, Talvar vadisində dəniz səviyyəsindən 1641 m yüksəklikdə yerləşir (36, p. 49). Yaşayış yeri eni 70, uzunu 80 m olan, 5600 kv.m sahəni əhatə edən təpə şəklindədir. Təpənin yer səthindən hündürlüyü 7 metrdir. Abbas Motarjem və Mahnaz Şərifi tərəfindən üç mövsümdə aparılan qazıntılarla öyrənilmiş və 6 mədəni təbəqə aşkar olunmuşdur. Burada yaşayış Eneolit dövründən Dəmir dövrünədək davam etmişdir (37, p. 27. 38, p. 89). Ən altdakı 5 m qalınlığındakı V təbəqə Erkən Eneolit dövrünə aid edilmişdir. Bu təbəqədə dörd lay müəyyənləşdirilmişdir. Üst laylardakı keramika məmulatının Dalma dövrünə uyğunluğu tədqiqatçıların fikrinə görə Urmiya hövzəsi ilə əlaqələri göstərir. Tədqiqatçılar bu təbəqənin Hassuna dövründən başlayaraq Dalma dövrünədək davam etdiyini qeyd edirlər (38, p. 93). Bu təbəqə e. ə. 5000-ci ilə, ondan aşağıda yerləşən VI təbəqə isə e. ə. 5500-cü ilə aid edilmişdir

**Təpə Siahbid.** Kirmanşahdan 12 km şimal-şərqdə, dəniz səviyyəsindən 1310 m yüksəklikdə yerləşir (27, p. 305). Yaşayış yeri ilk dəfə 1960-cı ildə Matsonun ekspedisiyasına daxil olan Breyvud (Braidwood) tərəfindən şurf qoyulmaqla öyrənilib. Qeydlərdən məlum olur ki, sahəsi 14,5 kv.m olan iki sahə təpənin cənubunda, sahəsi 65 kv.m olan üç sahə isə təpənin şimalında qazılıb. Tədqiqat zamanı Ubeyd tipli monoxrom boyalı keramika, həmçinin Dalma tipli basmanaxışlı və boyalı keramika aşkar olunub. Tədqiqatçı Matsonun fikrinə görə Siahbid təktəbəqəli preistorik yaşayış yeri olmuş, sonra isə İslam dövründə məskunlaşdırılmışdır. 1978-ci ildə Royal Ontario Muzeum Siahbiddə iki şurf qazmışdır. Bu qazıntılar 2,6 m dərinliyədək davam etdirilmiş, qazıntı zamanı birinci qazıntı sahəsində Neolit və Erkən Eneolit dövrü təbəqələrinin üzərində Dalmatəpə mədəniyyətinə aid divar qalıqları və keramika nümunələri əldə edilmişdir (27, p. 306).

**Choga Maran.** Kirmanşahdan 20 km şimal-qərbdə, dəniz səviyyəsindən 1306 m yüksəklikdə yerləşir (27, p. 311). 1978-ci ildə Mahidaşt layihəsi çərçivəsində 25 günlük qazıntı ilə tədqiq edilmişdir. Yaşayış yerinin şimalında iki sahədə qazıntı aparılmışdır. Birinci sahədə 4x4m ölçüdə Robin Dennel tərəfindən qazıntı aparılmış, 5 (116-111 laylar) mərhələ müəyyən edilmişdır. Qazıntılar İkinci sahədə Həsən Talai 2, 7-3 dərinlikdə qazıntı aparmış və 6 lay müəyyənləşdirmişdir. Hər iki qazıntının alt təbəqələrində Eneolit keramikası, o cümlədə Dalma tipli basmanaxışlı və boyalı keramika aşkar olunmuşdur. Lakin basmanaxışlılar bu yaşayış yerində azdır.

**Qodintəpə.** Kanqavar vadisində dəniz səviyyəsindən 1483 m yüksəklikdə yerləşir. İlk dəfə 1961-ci ildə kəşf edilmiş, 1965-1973-cü illərdə Cuyler Young tərəfindən tədqiq edilmişdir. Qodintəpənin X təbəqəsi Dalmatəpə mədəniyyətinə aiddir (27, p. 172). Yaşayış yerindəki XYZ şurfundakı qazıntılar Dalma dövrünün müəyyənləşdirilməsi üçün xüsusilə əhəmiyyətli olmuşdur. Tədqiqat zamanı ilk mərhələdə Dala-

ma zolaqlı boyalıları (13-28%), monoxrom Dalma boyalıları (3-18%), orta mərhələdə Dalma monoxrom boyalıları və ilk dəfə olaraq Dalma tipli basmanaxışlılar görünür. Son mərhələdə Dalma basmanaxışlılar tənəzzülü müşahidə edilir. Monoxrom boyalılar davam etsə də sonra yoxa çıxır (27, p. 173).

**Təzəkənd yaşayış yeri**. Bu yaşayış yeri Urmiya gölünün cənub-qərbində yerləşir. Yaşayış yeri kəşfiyyat xarakterli qazıntılarla öyrənilmişdir. Tədqiqat zamanı Dalma mədəniyyətinə, Erkən və Orta Eneolit dövrünə aid keramika nümunələri aşkar olunmuşdur. Tədqiqatlar yaşayış yerində həyatın Orta əsrlərədək davam etdiyini göstərir. Alt təbəqələrdə Dalma tipli basmanaxışlı və qırmızı astarlı keramika üstünlük təşkil edir (14, p. 63).

**Salmas ovalığı.** Urmiya gölünün şimal-qərbində yerləşən Salmas ovalığında aparılan araşdırmalar zamanı Dalma tipli keramika nümunələri aşkar edilmiş, lakin bu nümunələr yaxşı nəşr edilməmişdir (31, p. 136).

Tədqiqatçılar Şimal-Qərbi İranda Dalma mədəniyyətinin Qoşatəpə (24, p. 304), İdirtəpə (7, p. 80), Ahranjantəpə (45, p. 7-17), Barujtəpə (11, p. 4-25. 12, p. 3-21) kimi yaşayış yerlərində də yayıldığını qeyd etmişlər.

**Songar və Koliyaei ovalığı.** Kirmanşah və Həmədan yaxınlığında yerləşən Songar və Koliyaei ovalığında dəniz səviyyəsindən 1650-1700 m yüksəklikdə yerləşən Tepe Varz Kalaavil, QolQole və Nad Ali Beig yaşayış yerlərinin tədqiqi zamanı Dalma tipli keramika aşkar olunmuşdur (28, p. 39-40).

**İraq yaşayış yerləri**. İraq ərazsində Dalma tipli keramikanın aşkar olunduğu bir sıra abidələr vardır. Bunlar arasında aşağıdakı abidələr əsas yer tutur.

**Tell Abad**. Tell Abad yaşayış yeri Diyala çayının şərqində, Sadiyahdan təxminən 12 km cənub-şərqdə, Hamrin bölgəsində Zaqros dağlarının ətəklərində yerləşir. Yaşayış yeri ətraf düzənlikdən 3,5 metr hündürlükdə yerləşir (30, p.101). Yaşayış yerinin dəniz səviyyəsindən yüksəkliyi 105 metrdir. Burada aparılan qazıntılar zamanı üç tikinti qatının varlığı müəyyən edilmişdir. III təbəqə Samarra və Ubeyd I arasındakı keçid dövrünü, II təbəqə Ubeid II dövrünü əks etdirən Hacı Məhəmməd keramikasını, ən yuxarıdakı I təbəqə erkən Ubeyd III dövrü əks etdirir (30, p. 101). Yaşayış yerində Ubeyd təbəqəsinə aid tikililərin salamat qalmış hissələri əvvəlki təbəqədəki memarlığın davamıdır və onu göstərir ki, buranın qədim sakinləri öz evlərini tikərkən əvvəlki arxitekturaya kiçik dəyişikliklər etmişdirlər. Bu, Tell-Abadın Ubeyd III dövründə çoxotaqlı kvadrat binaların və T formalı həyətlərin üstünlük təşkil etdiyi memarlıq üslubunun mövcudluğunu açıq şəkildə ortaya qoyur (30, p. 102). I təbəqədə aparılan qazıntılar zamanı çoxlu sayda boyalı keramika tapılmışdır. Aşkar edilmiş keramikanın əksəriyyəti Ubeyd III stilinə aiddir. Bu tip keramika Şimali və Cənubi Ubeyd yaşayış yerlərində təmsil olunduğu kimi Ubeyd dövrünün tipik xüsusiyyətlərini nümayiş etdirir. Keramika əsasən incə şəkildə hazırlanmışdır. Lakin bəzi kobud düz keramika nümunələri də aşkar edilmişdir. Aşkar edilmiş keramika üzərindəıki boya adətən qara, qəhvəyi, qırmızı və ya yaşıl rəngdədir. Dulus çarxında düzəldilmiş bir çox keramika nümunələri də aşkar edilmişdir. Keramikanın bəzədilməsində həndəsi və naturalist naxışlardan istifadə edilmişdir. Buradan həmçinin çoxsaylı heykəlciklər, iy başlıqları, sümük alətlər, əyilmiş gil mismarlar, bəzi çaxmaq daşı və obsidian alətlər aşkar edilmişdir (30, p. 102-103).

**Keit Qasim**. Keit Qasim İraq ərazisində Cəbəl Hamrin bölgəsində, Bağdaddan təxminən 150 km şimal-şərqdə yerləşən qədim yaşayış yeridir (21, p. 213). Yaşayış yeri 1978-1980-ci illərdə aparılan qazıntılarla öyrənilmişdir. Yaşayış yerindəki tikinti planını belə ümumiləşdirmək olar: Şərq-qərb istiqamətli T formalı əsas zal var. Bu zalın şimalında və cənubunda müvafiq olaraq iki kiçik T formalı zal perpendikulyar yerləşdirilmişdir. Bu üç uzun zalın ətrafında dördkünc formalı otaqların qruplaşdırılmışdır (22, p. 221). Yaşayış yerindən çox az keramika tapılsa da, Dalma və Son Xalaf keramikası yaşayış yerini Ubeyd dövrünə tarixləndirməyə imkan verir. Keit Qasim III dən aşkar edilmiş basma naxışlı keramika, İran ərazisində geniş yayılmış bu tip keramika ilə yaxın bənzərlik göstərir (22, p. 224). Aşkar olunan materiallar əvvəlki tədqiqatlarda yaxşı nəşr edilmədiyindən Yaşayış yerinin kordinatları və yüksəkliyi barədə fikir demək çətindir.

**Kani Shaie**. Bu yaşayış yeri Mesopotamiyanın şimal-şərqində, yer səthindən 14 m dəniz səviyyəsində 379 m hündürlükdə, olan, 0, 5 hektar sahəni əhatə edən təpə şəklindədir. Yaşayış yeri qərbdə Tainal dərəsi ilə əhatələnmiş və dərəyə doğru axan kiçik bulağın kənarında yer almışdır. Ətraf ərazilərlə birlikdə yaşayış yerinin sahəsi 3 hektardır. Yaşayış yeri şimal-qərbdən cənub-şərqə doğru uzanan Bazian hövzəsinin mərkəzində yerləşməklə, dağlıq Pyedmont bölgəsini qərbdə Tanzaro-Şəhrizor düzənliyi, şərqdə Zaqros dağları olmaqla iki yerə ayırır (42, p. 3). Bu yaşayış yerində 2013, 2015 və 2016-cı illərdə üç mövsüm ərzində Kani Shaie Arxeoloji Layihəsi çərçivəsində qazıntılar aparılmışdır. Bu proyektin məqsədi İnranın dağlıq bölgəsi ilə Mesopotamiya arasındakı əlaqələri müəyyən etməkdən ibarət idi. Tədqiqat zamanı yaşayış yerinin Son Eneolitdən Erkən Tunc dövrünədək böyük bir dövrü əhatə etdiyi müəyyənləşdirilmişdir. Yaşayış yerinin VII təbəqəsi Son Ubeyd dövrünə, VI və V təbəqələri isə Son Eneolit dövrünə aid edilmişdir. Araşdırmalar zamanı yaşayış yerinin VII təbəqəsindən Ubeyd tipli boyalılarla bərabər Dalma tipli basmanaxışlı keramika da aşkar olunmuşdur (42, p. 9-11, fig. 6, 15-16, fig. 7, 1-3). Bu təbəqədə aşkar edilən keramika məmulatının əksəriyyəti bitki qarışıqlıdır. Lakin keramika nümunələri bitki qarışığının azlığına və çoxluğuna görə bir-birindın fərqlənirlər. Dalma tipli keramika Kani Shaienin digər təbəqələrindən aşkar edilməmişdir (42, p. 36, fig. 17).

**Qurqa Çiya**. Qurqa Çiya İraq Kürd bölgəsinin Şəhrizor düzənliyinin cənub hissəsində, Hələbjə şəhərinin yaxınlığında yerləşən kiçik çoxtəbəqəli yaşayış yeridir (47, p. 1). Yaşayış yeri ətraf ərazilərdən 12 m, dəniz səviyyəsindən 551 metr yüksəklikdə yerləşir. Şəhrizor ovalığının cənub hissəsində yerləşən Qurqa Çiya, təxminən bir hektar ərazini əhatə edən dik yamaclı təpədir. Burada çoxsaylı yaşayış dövrlərinin izlərini görmək olar. Yaşayış yerindən müxtəlif dövrlərə aid çox miqdarda keramika və çaxmaqdaşı alətlər aşkar edilmişdir. Tədqiqatçılar təpə üzərində bu dövrə aid yüksək mədəni təbəqə olduğunu ve binaların tez bir zamanda sıradan çıxdığı qənaətinə gəlmişlərdir. Yaşayış yerində Xalaf, Ubeyd və Uruk dövrünə aid aşkar olunan materiallar xüsusilə diqqətəlayiqdir. Yaşayış yerində bir ədəd Dalma tipli basmanaxışlı keramika da aşkar olunmuşdur (47, p. 13). Araşdırmalar burada həyatın Son Tunc dövrünədək davam etdiyini göstərir.

Tədqiqatçılar Son Ubeyd Dövründə Qurqa Çiya ilə Qərbi Zaqros yüksək dağlıq əraziləri arasında mədəni qarşılıqlı əlaqənin sübutu olaraq Dalma basmanaxışlı keramikasının aşkar olunmasını göstərirlər. Bu keramika parçası Qurqa çiya ilə qonşu bölgələr arasında mədəni mübadilənin varlığını təsdiq edir, bölgənin tarixdən əvvəlki mənzərəsindəki geniş qarşılıqlı əlaqələri göstərir. Bu kəşflər Qurqa Çiyanin arxeoloji tarixini və onun Şəhrizor düzünün tarixdən əvvəlki yaşayış məskənindəki rolunu daha dərindən başa düşməyə imkan verir. (47, p. 11-14).

**Surezha yaşayış yeri**. Surezha Dəclə çayı və Ninovanın şərqində, müasir Ərbil şəhərindən təxminən 20 km cənubda, müasir Surezha kəndinin yanında yerləşən təqribən 22 hektarlıq əraziyə yayılmış yaşayış yeridir (44, p. 126). Yaşayış yeri dəniz səviyyəsindən 330 metir yüksəklikdə yerləşir.

Tədqiqatçıların fikrincə yaşayış yerində 2013-cü ildən bəri davam edən qazıntılar, Xalaf dövründən Orta Uruk dövrünə qədər uzanan təxminən iki min il əvvələ aid fasiləsiz məskunlaşmanın izini ortaya çıxarmışdır. Xüsusilə, 2018-ci ildə aparılan araşdırmalar zamanı, 2-ci sahədə evlərin, həyətlərin və açıq hava iş yerlərinin zəngin mədəni mənzərəsi, o cümlədən inzibati funksiyaları göstərən möhür kimi mühüm tapıntılar aşkar edilmişdir. 9-cu və 10-cu sahələrdə iri çiy kərpic sərhədinin olması onu göstərir ki, sahələr müxtəlif məqsədlər üçün istifadə olunub və funksional fərqlərə baxmayaraq, bütün strukturlar ümumi memarlıq oriyentasiyasına malikdir. Bundan əlavə, 2018-ci ildə aparılan qazıntılar zamanı Orta Assuriya dövrünə aid dairəvi taxıl çuxurları da aşkar edilmişdir ki, bu da sahənin sonrakı dövrlərdə də istifadə edildiyini göstərir (44, p. 125-133).

Surezha keramikasının əhəmiyyətli hissəsini təşkil edən Dalma tipli basmanaxışlı keramikadır. 2018-2019-cu illərdə aşkar edilmiş 89 ədəd keramikanın 60-nı Dalma tipli basmanaxılılar təşkil edir. Naxışlar müxtəlif formalıdır. Barmaq basqılı, kiçik daraq və xüsusi alətlərin köməyi ilə müxtəlif formalarda naxışlanan keramika nümunələri vardır. Keramika nümunələ-

ri arasında yaş əllə və ya parça ilə hamarlanan bir səthə malik dərin qablar vardır. Tədqiqatçılar bu tip keramikanı suvama texnikası ilə naxışlanan keramika adlandırmışdır. Xüsusilə, bəzi parçalar üçün müntəzəm təkrarlanan naxılar xarakterikdir. Bəzi nümunələr isə nizamsız şəkildə naxışlanmışdır. Naxışlar qabların islaq səthində icra edildiyi üçün dərin iz buraxmışdır. Qazan tipli qablarda tutacaqlar əlavə əlavə edilmişdir. Tədqiqatçılar keramikanın ümumən orta ölçülü qablardan ibarətdir olduğunu qeyd etmişdirlər. Keramikanın xarici səthindəki gözə çarpan ləkələrin onların böyük ehtimalla yemək bişirimək üçün istifadə olunduğu fikrini qeyd etmişdirlər. Bununla belə, dekorativ üsulların müxtəlifliyini şəxsi və ya bəlkə də sosial motivasiyalar ilə əlaqəli ola biləcəyi deyilmişdir. Memarlıq qalıqları daxilində paylanma nümunələrinin təhlili bu qabların təyinatı və sosial-mədəni vəziyyət haqqında müəyyən fikir verə bilər.

Surezha yaşayış yerində Dalma tipli boyalı keramika Surezhadakı keramikanın daha kiçik bir hissəsini təşkil edir. Boyalı keramika Diaqonal xəttlər və şevron naxışlarla bəzədilmişdir. Bu keramika gilin tərkibi və bişmə texnikası baxımından basma naxışlı keramikaya bənzəyir. Keramikanın xəmiri qaba saman qarışıqdır orta dərəcədə yaxşı bişirilmişdir. Xarici səthlər düzləşdirilmiş və aydın bir suvaq izi yoxdur. Boya rəngi qırmızının müxtəlif tonları, qırmızı ve qəhvəyi, arasında dəyişir. Diyagonal xəttin iki alt növü aşkar edilmişdir: nazik diyaqonal xətt və qalın diyagonal xətt. Bunların hər ikisi rənginə görə fərqlənməklə müxtəlif endə və səliqəsiz şəkildə tətbiq edilmişdir. Nəticədə, tədqiqatçılar yerli Dalma boyalı keramikasının tamamilə orta ölçülü qabqalardan ibarət olması fikrinə gəlmişdirlər. Tədqiqatçılar Dalma tipli qırmızı astarlı boyalı keramikanın olmadığını yazmışlar. Onların fikrinə görə qırmızı astarlı keramika yerli istehsal üçün də xarakterik olduğundan onların qarışıq düşə biləcəyini və ayırd edilməsinin vacibliyini qeyd etmişlər. Tədqiqatçılar həmçinin, Surezhada Dalma sadə keramikasının varlığı və ya yoxluğunun daha sistematik bir araşdırma tələb etdiyini qeyd etmişlər (10, pp. 4-9). Surezha yaşayış yerində aparılan qazıntılar Şimali Mesopotamiyada Eneolit dövründə qəsəbə və şəhərlərin memarlıq quruluşu haqqında geniş təsəvvür yaradır. Tədqiqatlar göstərir ki, müasir Ərbil yaxınlığında yerləşən bu arxeoloji sahə hündür təpədən, pilləli quruluşda yerləşən və daha az tanınan ikinci dərəcəli yaşayış məskənlərindən ibarətdir. Memarlıq quruluşu adətən düzbucaqlı və ya kvadrat formalıdır və kərpicdən inşa olunmuşdur.

Naxçıvan ərazisində Dalma tipli keramika ilə təmsil olunan bir neçə qədim yaşayış yeri vardır.

**Naxçıvantəpə yaşayış yeri**. Naxçıvantəpə yaşayış yeri Naxçıvan şəhərinin cənub-şərqində Naxçıvançayın sağ sahilində, çay yatağından 3 metir yüksəklikdə yerləşir.Yaşayış yerinin dəniz səviyyəsindən yüksəkliyi 853 metrdir (1, p. 8). Yaşayış yeri 2017-2019 və 2022-ci illərdə müəllifin də iştirak etdiyi V.Baxşəliyevin rəhbərlik etdiyi arxeoloji ekspedisiya tərəfindən tədqiq edilmişdir. Aparılan tədqiqatlar zamanı burada 3,5 m qalınlığında dörd tikinti mərhələsi aşkar edilmişdir. İlk üç mərhələ Dalma Təpə mədəniyyətinə, dördüncüsü isə Neolit dövrünə, Dalmatəpə mədəniyyətinin formalaşma dövrünə aiddir. İlk mərhələdə yarımqazmalardan, sonra isə düzbucaqlı kərpic tikintilərdən istifadə olunmuşdur. Hər bir mərhələnin fərqli memarlıq xüsusiyyətləri və keramikası vardır. Aşkar edilmiş heyvan sümüklərinin təhlili yaşayış yerinin aşağı təbəqələrində ev heyvanlarının, xüsusən də qoyun və mal-qaranın çox olduğunu, yuxarı təbəqələrdə isə mal-qaranın faizinin artdığını göstərir. Aparılan araşdırmalar buranın qədim sakinlərinin ovçuluqla da məşğul olduğunu göstərir. Ov heyvanları arasında dovşan, ceyran, at, vəhşi öküz və maral vs vardır. Naxçıvantəpənin qədim sakinləri Cənubi Qafqaz və Şimal-Şərqi İran tayfaları tərəfindən geniş istifadə olunan Zəngəzur obsidian yataqlarından istifadə etmişdirlər.

Obsidian mənbələri və ondan istifadə bölgələr arasında mühüm mədəni və iqtisadi əlaqələri olduğunu göstərir. Yaşayış yerinin keramikası müxtəlif üslub və texnikaları özündə cəmləşdirsədə, keramik əsasən sadə,basmanaxışlı, boyalı və qırmızı astarlı keramikadan ibarətdir. Yaşayış yerinin Neolit təbəqəsindən Yaxın Şərq tayfalarına aid olan Xalaf-Ubeid tipli keramika aşkar edilmişdir. Bu tip keramika Naxçıvan və Yaxın Şərq tayfaları arasındakı əlaqəni göstərir. Ümumilikdə, bu tədqiqat Cənubi Qafqaz regio-

nunda qədim yaşayış məskənlərinin mədəni, iqtisadi və sosial dinamikasını işıqlandırır, müxtəlif tayfalar arasındakı əlaqələri və minilliklər ərzində mədəni təcrübələrin təkamülünü deməyə əsas verir.

**Uçan Ağıl yaşayış yeri**. Uçan Ağıl yaşayış yeri Sirab kəndi yaxınlığında 1200 metr yüksəklikdə, iki çayın kəsişdiyi ərazidə, Babək rayonunun Sirab kəndi yaxınlığında yerləşir. 2015-2019-cu illərdə V.Baxşəliyev və K.Marronun rəhbərliyi ilə tədqiq edilmişdir. Üç fərqli qazıntı kvadratında aparılan araşdırmalar, əsasən e.ə 5200 ilə 4350-ci illər arasına tarixlənmiş qalıqları ortaya çıxardı, ancaq burada e.ə 3-cü minilliyə də aid yaşayış olduğu müəyyən edilmişdir. Uçan Ağılın kiçik baş heyvandarlıqla məşğul olan tayfalar tərəfindən mövsümi olaraq istifadə edildiyi ehtimal edilir. Yaşayış yerində memarlıq qalıqları nadir olsa da, yaşayış yerinin izlərini dağınıq artefaktlar, ocaqlar və dirək dəliklərinin təşkil etdiyi qeyd edilmişdir. Tədqiqatçılar yaşayış yerində e.ə 5200-4350-ci illəri əhatə edən Erkən, Orta və Son Eneolit dövrünə aid keramikanın varlığından bəhs etmişdirlər. Sonrakı UA LC1B dövrü olaraq qeyd edilmiş və aşkar edilmiş keramikanın Ovçulartəpəsi keramikası ilə bənzərliyinə diqqət çəkmişdirlər. Bununla yanaşı yaşayış yerindən basmanaxışlı və qırmızı astarlı keramika da aşkar edilmişdir. Yaşayəş yerindən bu dövrə aid İran ərazisindən aşkar edilmiş boyalı keramikaya bənzər məmulatlara da rast gəlindiyi qeyd edilmişdir. Erkən Eneolit dövrü e.ə 5200-4450-ci illər arasında olan UA LC1A dövrüdür. Buradan aşkar edilmiş keramikanın az bir qrupu, xüsusilə basmanaxışlılar və qırmızı astarlılar Naxçıvantəpə və Ubeyd keramikası ilə bənzərdir. Bununla belə, Qərbi İran keramikasını xatırladan boyalı keramikada aşkar edilmişdir.



**Şəkil 4.** Bülövqayanın Xalaf-Ubeyd tipli keramikası.

Uçan Ağılın Erkən Eneolit dövrü təxminən eramızdan əvvəl e.ə. 4850-4600-cü illərə aiddir və keramika üzərində səbət izi, yüngül cilalama və bəzən qırmızı astar və ya boya kimi xüsusiyyətləri olan fərqli keramika qrupundan ibarətdir. Tədqiqatçılar bu dövrün həm də memarlığa dair ipucları verdiyini qeyd etmişdirlər. Yaşayış yeri ildə bir neçə aylıq istifadə edilməsini qeyd edən tədqiqatçılar burada mədəni təbəqənin incə olmasından, arxitekturanın yoxluğunun memarlıq quruluşu haqda nəsə deməyi çətinləşdirdiyini qeyd emişdirlər (35, p. 117).

**Uzunoba yaşayış yeri**. Uzunoba yaşayış yeri Babək rayonu ərazisində, Uzunoba kəndi yaxınlığında, Naxçıvançayın sağ sahilində, dəniz səviyyəsindən 946 m yüksəklikdə yerləşir (49, p. 3). Yaşayış yeri 2015-ci ildə V.Baxşəliyev və K.Marronun rəhbərlik etdiyi arxeoloji ekspedisiya tərəfindən kəşfiyyat xarakterli qazıntılarla öyrənilmiş. Tədqiqat zaman yalnız az sayda boyalı və qırmızı astarlı keramika aşkar olunmuş, basmanaxışlılar isə əldə edilməmişdir.

**Bülövqaya yaşayış yeri**. Bülövqaya yaşayış yeri Babək rayonu ərazisində, Göynük kəndinin cənub-qərbində, dəniz səviyyəsindən 1660 m yüksəklikdə yerləşir (4, p. 94). Yaşayış yeri V.Baxşəliyevin rəhbərliyi və müəllifin iştirakı ilə kəşfiyyat xarakterli qazıntılarla öyrənilmişdir. Tədqiqat zamanı Ubeyd tipli boyalı və sadə keramika, qırmızı astarlı keramika aşkar olunmuşdur. Lakin basmanaxışlılar indiyədək aşkar olunmamışdır.

**Keramika.** Dalma mədəniyyəti ilə təmsil olunan keramika zəngin çeşidə malikdir. Müxtəlif yaşayış yerlərindən aşkar edilmiş keramikanı hazırlanma üsulu, texnoloji xüsusiyyətləri kimi bir neçə qrupa bölmək olar. Burada əsas olaraq üstündə duracağımız məsələ ümumiləşdirilmiş olaraq boyalı və basma naxışlı keramika nümunələri olacaqdır. Dalma boyalı keramikası ilkin olaraq bu mədəniyyətə də adını verən Dalmatəpədən (23, p. 121, fig. 4) məlumdur. Bundan əlavə bu tip boyalı keramika Dava Göz (7, p. 74, fig. 7), Culfa Kültəpəsi (6, p. 328, fig. 5), Hacı Firuz (56, p. 145, fig. 92), Seh Gabi (27, p. 261, fig. 57), Lavintəpə (41, p. 115, fig. 8), Siahbidtəpə (27, p. 407, fig. 100, p. 409, fig. 101) kimi abidələrdən aşkar edilmişdir. Dalma mədəniyyəti ilə xarakterizə edilən digər bir naxışlama üsulu basma naxışlı formada olan nümunələrdir. Basma naxışlı keramika öz daxilində bir neçə tipə bölünür. Bunlardan birinci tip barmaq basqılı keramika nümunələridir. Bu tip naxışlama üsuluna Sonqar Vadisi (29, p.11, fig: 2,3, p.12, fig: 5, 6,8,11,12; p.14, fig: 8, 38), Dalma Təpə (23, p. 124 fig: pl. Ic, pl. II a, d, p.125, fig: d), Lavin Təpə (26, p.116, fig: 9-1,1021,1023,172, p.117 fig: 10-1, 1069,1285), Seh Gabi (27, p. 242, fig. 49, 1, 2, 4, 6, 7, p. 244, fig. 50, 1, 3, 4, 5, 6, 9, 11; p. 246, fig: 51, 1, 2, p. 248, fig: 52, 1,2, p.250, fig:53, 2,3,4, p.415, fig:104, 1,2,4,5,6, p.417, fig:105,1) yaşayış yerlərində rast gəlmək olar. Barmaq basqılı kasa nümunələrindən birinin oturacağı da barmaq basqısı şəklində naxışlanmışdır (Şəkil 1, 3). Bu tip naxışlama üsuluna Dava Göz II (7, p. 75, fig. 11), Hajji Firuz (46, p.123, fig. 81, a, b) yaşayış yerlərində rast gəlinir. İkinci tip daraqvari alətlə naxışlanmış nümunlərdir. Bu tip naxış Dalma təpə ( 23, p. 124, pl II, a, b, c, d), Seh Gabi (27, p. 244, fig. 50, 2,7,8, p. 246, fig. 51, 3), Culfa Kul Təpəsinin müxtəlif təbəqələrindən (5, p.116, fig. 15, 1, 4, p.120, fig. 19,5 p.122, fig: 21, 14, p.126, fig. 25, 1, p.146, fig: 45,3) məlumdur.

İraq ərazisində Xalaf və Ubeyd mədəniyyəti ilə təmsil olunan abidələrdən aşkar edilmiş keramika Dalma keramikası ilə yaxın bənzərlik göstərir. Bunlara Tell Arpaciyah (34, p. 149, TT6. A 751 B), Tell Hassuna (33, p. 36. Fig. 10, levels II-VI 1, 9, 11), Tell Aqab (19, p.6, Fig. 2, 3), Tell Sabi Abyad (39, p.52, Fig. 3. 4, 6, 10), Tell Halula (39, p. 53. Fig. 5, 7, 8), Chagar Bazar (39, p. 55. Fig. 7, 4), kimi abidələri misal göstərə bilərik.

Buradan aşkar edilmiş boyalı keramika zəngin naxışlama üsuluna malikdir. Bunlara nümunə verəcək olsaq Tall Arpaciyahda (34, p. 158, fig10. 58, 4. A 729 B) və Tell Sabi Abyadda (40, p.126. Fig. 10, 5) üzəri torşəkilli naxışla bəzədilmiş keramikanı . Tell Arpaciyah (34, p.141, TT6. Plate XIV A 753(B) . p. 142, fig. TT6. A752.) və Matarrahda (17, p. 682, Fig. 1, C) bir-biri üzərinə çəkilmiş üçbucaqlar şəklində olan keramikanı. Tell Arpaciyah (34, p. 162, fig. 60 1. A 737 (B), Tell Sabi Abyaddan (8, p. 9 fig. 9, 9, 11, 16) aşkar edilmiş ağacşəkilli naxışla bəzənmiş keramikanı. Umm Dabaqiyah (32, 1972, p. 16, Plate X, 7,10, 11) və Tell Damishliyyadan (9, p. 61, plate

15. 116-117) isə ziqzaq şəkilli formada naxışlanmış keramikanı misal göstərə bilərik.

**Xammal mənbələri.** Naxçıvantəpə və Bülovqaya yaşayış yerlərindən aşkar edilmiş obsidian nümunələrinin təhlili Yaxın Şərqlə əlaqələrin inkişafında xammal mənbələrinin təsirini göstərir. Əldə olunan nümunələrə əsasən bölgənin qədim sakinlərinin qədim Mesopotamiya tayfaları ilə sıx qarşılıqlı iqtisadi əlaqədə olduqlarını deyə bilərik. Obsidian qalıqları göstərir ki, Naxçıvanın qədim sakinləri daha çox Zəngəzur, Göyçə və Şərqi Anadolu obsidianlarına üstünlük vermişdirlər (3, s.34). Digər tərəfdən, Cənub-Şərqi Anadolu obsidianından məhdud şəkildə istifadə edildiyi müəyyən edilmişdir (2, s. 18). Tədqiqatçılar Şərqi Anadolu obsidianının uzun müddət Xalaf mədəniyyətində istifadə edildiyinə dair izlər aşkar etmişdirlər(25, s. 171). Tell Arpaçiyada aparılan araşdırmalar göstərir ki, bu bölgədəki obsidian qalıqlarının əksəriyyəti Şərqi Anadoludan, xüsusilə Nemrut dağından gətirilmişdir (16, s. 538). Tell Kürdü yaşayış yerindən aşkar edilmiş nümunələr Şərqi (Göllü Dağ və Nemrut Dağ massivləri; Bingöl bölgəsi) və Şimal-Şərqi Anadolu (Van gölü) obsidianının Ubeyd və Xalaf dövrlərində istifadə edildiyini göstərmişdir (15, s.1560). Eynilə Damişliya I və Sabi Abyad II yaşayış yerlərindən götürülmüş obsidian analizləri bu bölgələrdə yaşayan qədim tayfaların Meydandağ və Nemrutdağ obsidianına üstünlük verdiyini göstərir (13, s. 4). Bu kontekstdə görünür ki, hər iki mədəniyyətə məxsus tayfalar eyni xammal ehtiyatlarından istifadə etmiş və Naxçıvan torpaqlarında oxşar keramika məmulatlarının formalaşmasında aralarındakı iqtisadi əlaqələr təsirli olmuşdur. I Kültəpənin Neolit təbəqəsindən əldə edilən keramika nümunələrində də Naxçıvan bölgəsi mədəniyyətlərinə Xalaf-Ubeyd tipli keramikaların təsiri aydın görünür. Bu baxımdan Xalaf-Ubeyd mədəniyyətləri ilə əlaqələr VI-V minilliklərə gedib çıxır. Bu qarşılıqlı əlaqənin minilliklər boyu davam etdiyini və Naxçıvanda formalaşan mədəniyyətə dərindən təsir etdiyini söyləmək olar.

**Nəticə.** Araşdırmalar göstərir ki, Dalmatəpə mədəniyyəti başlıca olaraq Şimal-Qərbi İran, Şimal-Şərqi Mesopotamiya və Cənubi Qafqazda isə Naxçıvan və indiki Ermənistan ərazisində yayılmışdır. Naxçıvanda basmanaxışlılar həlәlik Naxçıvantəpə və Uçan Ağılda Ermənistanda isə basmanaxışlı keramika Qodedzorda aşkar olunmuşdur. Şimal-Qərbi İran və İraqdakı yaşayış yerlərinin bir qismində Dalma tipli basmanaxışlı keramika azdır. Şimali Mesopotamiyada Dalma tipli basmanaxışlı keramika Zaqros bölgəsilə əlaqələrin varlığı kimi qiymətləndirilmişdir. Şimal-Qərbi İran və Şimali Mesopotamiyanın yaşayış yaşayış yerlərində Dalma tipli basmanaxımlı keramika Ubeyd boyalıları ilə birlikdə aşkar olunmuşdur. Oxşar hadisə Cənubi Qafqazda yer alan Naxçıvantəpə, Uçan Ağıl və Qodedzorda da müşahidə edilmişdir. Bu, fikrimizə görə, Yaxın Şərq ölkələri ilə Cənubi Qafqaz arasındakı əlaqələri göstərir. Tədqiqatçılar bu əlaqələrdə köçmə maldarlıqla məşğul olan tayfaların mühüm rol oynadığını göstərirlər. Şimal-Qərbi İrandakı abidələrin başlıca olaraq dağlıq ərazilərdə yerləşməsi də Dalma tayfalarının həyat tərzində köçmə maldarlığın mühüm yer tutduğunu göstərir. Tədqiqatlar göstərir ki, Şimal-Qərbi İran və Şimali Mesopotamiya tayfaları Neolit dövründə başlıca olaraq Şərqi Anadolu obsidianından istifadə etmişdir. Lakin e. ə. VI-V minilliklərdən başlayaraq Dalma tayfaları Cənubi Qafqaz obsidianından geniş istifadə etməyə başlamışlar. Naxçıvantəpənin tədqiqi e. ə. V minilliyin əvvəllərindən başlayaraq Yaxın Şərqlə əlaqələrin və Ubeyd tipli keramikanın artdığını göstərir. Ehtimal ki, bu əlaqələrin intensivləşməsi Cənubi Qafqazın xammal mənbələri, xüsusilə obsidian və mis yataqları ilə bağlı olmuşdur.

## Ədəbiyyat

1. Baxşəliyev V., Quliyeva Z., Həşimova T., Mehbalıyev K. Baxşəliyev E. Naxçıvantəpə yaşayış yerində arxeoloji tədqiqatlar. Naxçıvan: "Əcəmi". 2018. 266s.
2. Baxşəliyev V. Naxçıvanda 2018-ci ilin Arxeoloji Tədqiqatları. Naxçıvan: Əcəmi, 2019, 102 s.
3. Baxşəliyev V. Neolit və Erkən Eneolit dövründə Naxçıvanın iqtisadi-mədəni əlaqələri. Naxçıvan: Əcəmi, 2021, 232 s.
4. Baxşəliyev E. Bülövqaya yaşayış yerinin keramikası. AMEA Naxçıvan Bölməsi, İctimai və humanitar elmlər seriyası. Naxçıvan, "Tusi" – 2021, №1, Cild 17, s. 94-101.

5. Abedi A., Shahidi H.K.C., Chataigner Ch. Niknami K., Eskandari N., Kazempour M., Pirmohammadi, A., Hoseinzadeh J., Ebrahimi G. Excavation at Kul Tepe (Hadishahr), North-Western Iran, 2010: First preliminary report. Ancient Near Eastern Studies.2014, 51. pp.33-165.
6. Abedi A., Omrani B., Karimifar A. Fifth and fourth millennium BC in north-western Iran: Dalma and Pisdeli revisited. Documenta Praehistorica.2015, 42, pp.321-338.
7. Abedi A. Iranian Azerbaijan pathway from the Zagros to the Caucasus, Anatolia and northern Mesopotamia: Dava göz, a new Neolithic and chalcolithic site in NW Iran. Mediterranean Archaeology and Archaeometry. 2017,17(1). pp. 69-87.
8. Akkermans P., Mière M. "The 1988 Excavations at Tell Sabi Abyad, a Later Neolithic Village in Northern Syria." *American Journal of Archaeology*, vol. 96, no. 1, 1992, pp. 1–22.
9. Akkermans P. The Soundings at Tell Damishliyya. M.N. van Loon, ed., Hammam et-Turkman, Leiden & Istanbul, 1988. pp.19 – 67.
10. Alden J., Minc L., Buehlman-Barbeau, S.,Stein G. (2021). Dalma ceramics at Surezha in the Erbil Plain: Stylistic, compositional, and petrographic evidence for trans-Zagros interaction during the Terminal Ubaid/Late Chalcolithic 1. Journal of Archaeological Science: Reports. 2021. 39(1). pp. 1-23.
11. Alizadeh K., Azarnoush M. Systematic survey of Tepe Baruj: Sampling method and statistical results (Barresi-ye Raveshmand-e Tappe-ye Baruj: Ravesh-e Numunebardari va Natayej-e Amari)," Iranian Journal of Archaeology and History 33, 2003a, pp. 4–25 (In Persian with English summary).
12. Alizadeh K., Azarnoush M. Systematic survey of Baruj Tepe: Cultural relationship between the south and the north of the Araxes River (Barasiy-e Ravehsmand-e Tapeh Baruj: Ravabet-e Farhan-gi-e do soye Rood-e Aras)," Iranian Journal of Archaeology and History 34, 2003b, pp. 3–21 (In Persian with English summary).
13. Astruc L., Gratuze B., Pelegrin J., Akkermans P. From production to use: a parcel of obsidian bladelets at Sabi Abyad II. 2007. pp. 1-15.
14. Balmaki B. The Dalma Culture in the Hamedan Plain Stratigraphic Excavation at Tappeh Taze-Kand, // Pazhohesh-Ha-Ye Bastanshenasi İran, 2017, 7, p. 63-82.
15. Bressy C., Poupeau G., Yener K.A., Cultural interactions during the Ubaid and Halaf periods: Tell Kurdu (Amuq Valley, Turkey) obsidian sourcing, Journal of Archaeological Science, 2005, Volume 32, Issue 10, pp.1560-1565.
16. Campbell S., Healey E. The obsidian at Arpachiyah // Iraq. 2013. pp.529-542.
17. Cruells W. "The Proto-Halaf: Origins, Definition, Regional Framework and Chronology", in J. M. Cordoba, M. Molist, M. C. Perez, I. Rubio and S. Martínez, (eds.), Proceedings of the 5th International Congress on the Archaeology of the Ancient Near East (3-8 april 2006), Vol. III, III vols., UAM, Ediciones, Madrid, 2008. pp. 671-689.
18. Danti M.D. – The Ilkhanid heartland: Hasanlu Tepe (Iran) period 1.Philadelphia: University Museum, University of Pennsylvania (Hasanlu Excavation Reports 2; Museum Monograph 120), 2004, 94 p.
19. Davidson T. E. and Trevor Watkins. "Two Seasons of Excavation at Tell Aqab in the Jezirah, N.E. Syria." *Iraq*, vol. 43, no. 1, 1981, pp. 1–18.
20. Dyson. R. H. Hasanlu and the Solduz and Ushnu Valleys: Twelve Years of Exploration. *Archaeologia Viva* 14 (1/1), 1968 pp. 83-101.
21. Forest J.D. Kheit Qasim I. Un cimetière du début du troisième millénaire dans la vallée de Hamrin, Iraq. In: *Paléorient*, 1980, vol. 6. pp. 213-220.
22. Forest F.C. Rapport sur les fouilles de Kheit Qasim III-Hamrin. In: *Paléorient*, 1980, vol. 6. pp. 221-224.
23. Hamlin C. Dalma Tepe, Iran, 13, 1975, pp. 111–127.

24. Hejebri Noubari A.R., Pour Faraj A.. Explanation Of The Neolithic And Chalcolithic Periods In Ardebil Region: On The Basis Of Archaeological Data From Gosha Tepe Of Shaharyeri. Journal of The Faculty Of Letters And Humanities. Tehran. 2005. vol. 57, no. 180, pp. 1–26.
25. Healey E. Obsidian as an indicator of inter-regional contacts and exchange: Three case-studies from the Halaf period. Anatolian Studies. 2007. v. 57. pp.171-189.
26. Hejebri N., Binandeh A., Nestani J. and Vahdati N. H. Excavation at Lavin Tepe North-West Iran // Ancient Near Eastern Studies, vol. 40, 2012, p. 95-117.
27. Henrickson E. Ceramic Styles and cultural Interaction in the Early and Middle Chalcolithic of Central Zagros Iran. Ph. D. Thesis. University of of Toronto: Department of Anthropology. 1983, 813 p.
28. Heydarian M., Zeynivand M., Hariryan H. The Dalma Settlements of Songhor and Koliyaei Plains, Central Zagros. Iranian Journal of Archaeological Studies. 2013. pp. 39-47.
29. Heyderyan M., Möhsün Z., Həmid H. Kirmanşahın Sonqar vadisində Orta Xalkolitik yaşayış yerləri // Payambastanşünas, 1392, № 19, p. 1-14.
30. Jasim S.A. Excavation at Tell Abada, Iraq. In: *Paléorient*, 1981, vol. 7, n°2. pp. 101-104.
31. Kearton R. Settelment Pattern in Western Azerbaijan, Iran. PhD Dissertation, 1970, 214 p.
32. Kirkbride D. "Umm Dabaghiyah 1971: A Preliminary Report. An Early Ceramic Farming Settlement in Marginal North Central Jazira, Iraq." *Iraq* 34 (1972): 3 - 15.
33. Lloyd S., et al. "Tell Hassuna Excavations by the Iraq Government Directorate General of Antiquities in 1943 and 1944." *Journal of Near Eastern Studies*, vol. 4, no. 4, 1945, pp. 255-89.
34. Mallowan M., Cruikshank R. J. Excavations at Tall Arpachiyah, 1933. Iraq. 1935;2(1) pp. 1-178.
35. Marro C., "The View from the North", The Emergence and Spread of the Chaff-Faced Ware oikumenè as seen from the Caucasus (ca. 4600-3500 BCE). *Paléorient*, 2022, 48-1 | -1, 111-130.
36. Motarjem A. Sharifi M. Cultural Development of Chalcolithic Era in the East of Central Zagros based on Archaeological Excavations at Tepe Gheshlagh // Iranian Journal Of Archaeological Studies, 4, 2014, p. 49-65.
37. Motarjem A., Sharifi M., .An analysis on the function and nature of the tokens and clay figurines from Tape Gheshlagh of Talvar during the Chalcolithic Period .Pazhohesh-ha-ye Bastanshenasi Iran, 7 (2015), pp. 27-46.
38. Motarjem A. Sharifi M. The process of cultural change in the Chalcolithic period in the highlands of Western Iran at Tepe Gheshlagh // Documenta Praehistorica, XLV, 2018, p. 86-99.
39. Nieuwenhuyse O., Cruells, W. The Proto-Halaf Period in Syria. New Sites, New Data. Paléorient. 2004. v.30/1 .pp. 47-68.
40. Nieuwenhuyse O., Akkermans P. Transforming the Upper Mesopotamian Landscape in the Late Neolithic. 2019. pp.101-137.
41. Nobari A., Binandeh A., Neyestani C., Vahdati Nasab H. Excavation at Lavin Tepe in northwest Iran. Ancient Near Eastern Studies. 2012, 49. 95-117.
42. Renette S., Khaled A., Gibbon E., Michael P. Lewis, Zana Abdullkarim Qadir, Ricardo C. and Andre G. Tome. Late Chalcolithic Ceramic Devolopment In Southern Iraqi Kurdistan: The Stratigraphic Sounding at Kani Shaie //Iraq? 2021, p. 1-48.
43. Solecki R. W. and Solecki R. S., Tepe Seavan - A Dalma Period Site in the Margavar Valley, Azerbaijan, Bulletin of the Asia Institute 3, 1973, pp. 98-117.
44. Stein G., Fisher M. Surezha Excavations 2018 Erbil Plain, Kurdistan Region, Iraq.2019 pp. 125-138.
45. Talai H. Pottery evidence from Ahrendjan Tepe, a Neolithic site in Salmas plain, Azerbaijan, Iran. AMI (16), 1983, pp. 7-17.
46. Voigt M. M. Hajji Firuz Tepe, Iran: The Neolithic Settlement. Philadelphia: The

University Museum, University of Pennsylvania, 1983, 528 p.
47. Wengrow D., Carter R., Brereton G., Shepperson M., Hamarashi M. S., Saber A.S., Andrew B., Fuller D., Himmelman H., Sosnowska H., Gonzalez Carretero L. Gurga Chiya and Tepe Marani: New excavations in the Shahrizor plain, Iraqi Kurdistan. Iraq.2016. 78. pp. 1-32.
48. Young T.C. Jr. And Levine L.D. Excavations of the Godin Project: Second Progress Report, Art and Archaeology Occasional Paper 26, Toronto, 1974, 167 p.
49. Бахшалиев В.Б. Исследование энеолитических памятников Сирабчайской и Нахчыванчайской долин. Problems of the Archaeology of theCaucasus and Near East. Neolithic – Late Bronze Age. Baku: Институт археологии и этнографии. 2017, с. 108-121.

## Summary

**Elmar Bakhshaliyev**

**Topographic and cultural characteristics of dalmatepa cultural monuments**

The study of Dalmatepe culture monuments shows that they spread in North-West Iran (Iran-Azerbaijan), Iraq and Nakhchivan. Studying the topographical and cultural features of the monuments allows studying the lifestyle of the tribes that created this culture. Based on the research, it can be said that the main occupation of these tribes was agriculture and nomadic cattle breeding. Tribes living in Iran-Azerbaijan preferred nomadic livestock farming. Based on research, it can be said that the tribes living in the South Caucasus and the sources of raw materials of the South Caucasus played an important role in the spread of this culture.
***Keywords***: *Dalmatepe, chalcolithic, Ubed type ceramics, Khalaf ceramics, painted ceramics, topography, impression ceramics.*

## Резюме

**Эльмар Бахшалиев**

**Топографическая и культурная характеристика памятников культуры далма тепы**

Изучение памятников культуры Далма тепе показывает, что они распространены на Северо-Западном Иране (Иранский Азербайджан), Ираке и Нахчыване. Изучение топографических и культурных особенностей памятников позволяет изучить образ жизни племен, создавших эту культуру. На основании исследований можно сказать, что основным занятием этих племен было земледелие и кочевое скотоводство. Племена, проживающие в Иранском Азербайджане, предпочитали кочевое скотоводство. На основании исследований можно сказать, что важную роль в распространении этой культуры сыграли племена, проживающие на Южном Кавказе, и источники сырья Южного Кавказа.
***Ключевые слова***: *Далма тепе, энеолит, керамика убедского типа, халафская керамика, расписная керамика, топография, керамика с тисненым орнаментом.*